**AYTAC ABBASOVA**
**AMEA Folklor İnstitutunun**
**filologiya üzrə fəlsəfə doktoru**
**folklorgirl@mail.ru**

# MÜASİR DÖVR AZƏRBAYCAN ROMANLARINDA FOLKLORİZMİN İŞLƏNMƏ İMKANLARI

**Açar sözlər:** müasir dövr, roman,yazıçı, folklor, millik
**Keywords:** Keywords: modern time, novel, a writer, folklore, nationality.
**Ключевые слова:** современное время, роман, писатель, фольклор,национализация

Qədim və zəngin mədəniyyətə, incəsənətə və mənəvi dəyərlərə sahib bir xalq olaraq həyat hadisələrini yazılı ədəbiyyatda yaradıcı, təsirli üsul və metodlarla ifadə etmək məsələsində yazıçılar həmişə folklor motivlərinə müraciət edirlər. Müasir dövrdə də yazılı ədəbiyyat həyat hadisələrinə daha ciddi bədii meyarlarla yanaşır, gerçəkliyin sadəcə təsvirini deyil, onun bədii tədqiqini verməyə çalışır. Bu dövrdə cəmiyyətin əvvəlki mərhələlərinin təsvirində yazıçı baxışının, yazıçı münasibətinin birtərəflikdən xilas olunması çox aydın şəkildə nəzərə çarpır. Buna görə də ədəbiyyatda həyatın çətin və mürəkkəb problemlərindən yazmaq hissi daha güclüdür. Bu təbii olaraq ədəbiyyatda tənqidi pafosun və rəmzi-simvolikanın müəyyən dərəcədə artması ilə nəticələnir.

Müasir dövrdə yazıb-yaradan yazarlardan elə birinə rast gəlmək mümkün deyil ki, poeziyada, nəsrdə bu və ya digər dərəcədə folklordan faydalanmamış olsun. Folklor motivləri müasir dövr Azərbaycan ədəbiyyatında milli kimliyin bilavasitə ifadə formasına çevrilibdir. Belə ki, məşhur və gənc yazıçıların əsərlərində, əsasən dastan, əfsanə, nağıl sujetlərinin, folklor motivlərinin işlənməsi çoxluq təşkil edir. Bu dövrdə yazıb-yaradan yazıçılardan Anar, K.Abdulla, E.Hüseynbəyli, H.Mirələmovun və s. yaradıcılıqları folklor motivləri ilə zəngindir.

Müasir Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən olan Elçin Hüseynbəylinin "Yovşan qağayılar" (2005) adlı romanı folklor motivlərinin işlənməsi və milli yaddaşın bərpası, milli özünəqayıdışın ən gözəl nümunəsidir.

Müəllif romanın əvvəlində mövsüm mərasimlərinə məxsus "Novruz" bayramının qısa, amma məxsusi məqamlarına toxunaraq maraqlı təsvirini vermişdir. Romanda Novruz bayramı belə təsvir olunur: "İlk Novruz tonqalını da mən həmin iki küçənin kəsişdiyi yerdə görmüşdüm... Öncə o məkanın ortasında dilimləri ərşə dirənən alovun qızartısını, sonra ocağın

özünü və ətrafına toplaşmış insanları görmüşdüm. Bu şadyananlığın əzəmətini, mənasını dərk etməsəm də, onun atəşfəşanlığını içimdə əziz bir xatirə kimi gəzdirmişdim və yəqin ki, həmin gündən sonra mən Novruzun əsrarəngiz bir bayram olduğuna inanmışdım. O, təkcə şəkərburaların, paxlavaların, yumurta döyüşməyin rəmzi deyildi, Novruz insanların birliyinin təcəssümüydü və onu hamı ilə birlikdə yaşamaq adama ləzzət eləyirdi. Ona görə də hələ Novruza bir həftə qalmış bayramın qurtaracağına təəssüflənirdim" (5, 13-14).

Müəllif əsərdə xalqımızın minillik tarixini, qədimliyini və zənginliyini özündə qoruyub saxlayan müstəqillik dövründə milli bayram statusu qazanan, yazın gəlməsini, təbiətin oyanmasını simvolizə edən Novruz bayramı haqqında xatirələrini və bayrama məxsus atributları oxucunun diqqətinə çatdırır. Bildiyimiz kimi, Novruz gəlməmişdən öncə onun ilk carçısı kimi hər həftə ocaqlar qalanır və dörd çərşənbəyə bölünür. Bayram süfrəsi və bayrama məxsus şirniyyətlərin – şəkərbura, paxlava, qoğal və bayram aşının bişirilməsi, uşaqların yumurta döyüşmə adəti bayramın simvollarıdır. Müəllifin də qeyd etdiyi kimi, Novruz insanların birliyini təcəssüm etdirən, inancla, öz kökünə bağlı adət-ənənə ilə yaşamağı təbliğ edən bir bayramdır. Amma sürətlə inkişaf edən və müasirləşən dövrümüzdə Novruza aid adət-ənənələr yavaş-yavaş xatirələrə çevrilir.

E.Hüseynbəylinin "Yovşan qağayılar" (2005) (5) romanında nağıl motivi də öz əksini tapmışdır. Və nağıllar romanın içərisində elə məharətlə əlaqələndirilmişdir ki, müəllifin məqsədini açıq-aydın və təsirli şəkildə oxucuya çatdırmışdır.

Romanda Azərbaycan mentalitetinə aid maraqlı bir adət də öz əksini tapmışdır. Bu qız qaçırma adəti idi. Bu, adət olmaqla yanaşı həm də mifik təfəkkürün bir parçası olaraq xalqımızın mərasim adət-ənənlər sistemində özünəməxsus yer almışdır.

Qızın qaçırılması mifoloji anlamda oğurlanmasıdır. Hər iki adətdə xoas və kosmos qarşıdurması özünü göstərir. Xoasdan-qız evindən həm gəlinin aparılması, həm də onunla birikdə əşyaların götürülməsi kosmosdan gələn qəhrəman-oğlan evi tərəfindən həyata keçir. "Qız evində normalar pozulur, "antinorma" (oğurluq) özü "normaya" çevrilir. Kosmos qanunlarının əksi olan "qanunlar" aktivləşmiş olur" (6, 217).

Lakin romanda "qız qaçırmaq" hadisəsi adət kimi yerinə yetirilmir, burada sitiuatsiya dəyişir. Romanda Fərhad kişinin oğlunun öldürülməsindən qırxgün keçməmiş onun dul qalan gəlini qaçırırlar. Bu artıq milli mentalitetə yad olan, normaları pozan "namusa toxunmaq" anlamına gələn bir vəziyyət yaradır. Və burada qisas, intiqam almaq məsələsi ortaya çıxır. Xalqa məxsus bir çox mənəvi-əxlaqı dəyərlər vardır ki, bu mizan kimi cəmiyyəti sabit saxlayır. Əgər nizam pozularsa, mütləq onun cəzalandırlması və mizanın

qaydaya qoyulması lazımdır. Bu dəyərlərdən ən mühimi əxlaq, namus, qeyrət məsələsidir ki, yazılmamış xalq qanunlarına aid olur və ona əməl olunmazsa, xalq cəzası ilə cəzalandırılır.

"Yovşan qağayılar" romanında iki nağıl sujetindən istifadə edilibdir. Birincisi, "Nəhlət daşı", ikincisi isə "Üç qardaş" nağılıdır. Yazıçı hər iki nağıldan romanda qaldırılan məsələ ilə bağlı problemin həllinə və tənqidinə yönəlmişdir. "Nəhlət daşının altında Şeytan yatır. Həmin Şeytan iki kəndi torpaq üstündə bir-birilə düşmən edib. Bir kəndin adamları o biri kəndin çobanını öldürüb. O biri kənd də bunun əvəzini çıxıb. Bu qan düşmənçiliyinin qarşısını almaq üçün hər iki kəndin ağsaqqalları bir yerə toplaşıblar, həmin yeri lənətlənmiş yer sayıblar və ora "Nəhlət daşı" qoyublar" (5, 240).

Əsərdə bu məqam xüsusi ilə qabardılıb və yazıçı bu vasitəsilə qisas və qan düşmənçiliyi motivlərini tənqid edibdir.

Roman da qəhrəmanın milli kökünə qayıdış məsələsi xüsusi vurğulanır. Hətta deyə bilərik ki, roman başdan-başa keçmişə, özünə – milli kökə qayıdışa həsr olunubdur. Obrazın atla söhbəti alleqoriyadan istifadə və cəmiyyətdə olan mövcud problemlərin həllində əsas məsələ olan keçmişin unudulmaması, sağlam gələcəyin də bu keçmiş üzərində daha möhkəm ənənlərlə yaşadılmasıdır.

Obraz babasının atı ilə danışır. At ona kimliyini, keçdiyi çətin, uzun və əzablı yolu xatırladır. Bunları unutmamağı söyləyir. Müəllif burada türkün mifoloji sistemində özünə xüsusi yer tutan at kultundan istifadə edir. Ümumiyyətlə, at dünya mifologiyasında, folklorunda, eləcə də dastanlarımızda, nağıllarımızda geniş yer tutmuş varlıqlardan biridir. Nağıllarımızda atın insanı xoşbəxtliyə çatdırması ilə bağlı istənilən qədər örnək göstərmək olar. Dastanlarımızda atın daha qədimlə, mifoloji hadisə və səxslərlə bağlı olmasını da görə bilərik. Prof. Kamran Əliyev yazır: "Türk təfəkkürünün və dünyagörüşünün, türk məişətinin və həyat tərzinin yeniləşməsində, türk qəhrəmanlığının təşəkkül tapması və formalaşmasında atın rolu əvəzsizdir" (3, 14). Alleqoriya fonunda obrazına at vasitəsilə səslənən müəllif onu oyatmağa, özünə, keçmişinə, kökünə qaytarmağa çalışır. Bunlar obrazın müasir dövrümüzdə qarşılaşdığı sosial-psixoloji problem səviyyəsində olan milli-etnik, mənşəyə söykənən cəmiyyətin yaradılması sisiteminin elementləri olaraq biri-birini tamamlayır, açır və izah edir.

Ümumilikdə qeyd etmək istəyirik ki, bu roman müstəqillik dövrü Azərbaycan ədəbiyyatında 1960-1980-ci illər ədəbiyyatında var olan problemlərin davamı kimi həmin problemlərin daha da qabarıq şəkildə müasir cəmiyyətdə də davam etdiyini göstərir. Romanın sujeti və kompozisiya quruluşu, hadisələrin təsviri, əks olunan problemlərin tipi

baxımından bizə İsmayıl Şıxlının "Dəli Kür" romanının xatırladır. Baxmayaraq ki, İ.Şıxlıda qeyd edilən məsələlər daha geniş və bütün təfsilatları ilə əks olunurdu, E.Hüseybəlidə isə qısa və konkret əksini tapmışdır. "Dəli Kür" romanında da Novruz bayramının təsviri, başqasının arvadını qaçırmaq, namus, qisas məsələsi, atla bağlı maraqlı situatsiyalar və s. "Yovşan qağayılar" romanında olan hadisələrlə səsləşir.

Müasir Azərbaycan ədəbiyyatında bir çox əsərləri qeyd edə bilərik ki, bu əsərlərdə müəlliflər folkor motivindən məharətlə istifadə etmiş və oxucuya öz məqsəd və niyyətlərini xalqın dilindən, xalqın üslubundan incə məqamlara toxunaraq ifadə etmişdir. Anarın "Ağ qoç, qara qoç" (1) əsəri həcmcə kiçik olmasına baxmayaraq, mövzu baxımından bir o qədər geniş və dərin ictimai-siyasi poroseslərə həsr olunmuşdur. Müəllif "Məlikməmməd" nağılından istifadə edərək nağılvarı üslub yaradıb nağılda iki dualist anlamın Ağ qoç və Qara qoç (utopya-antiutopya), (işıqlı dünya-qaranlıq dünya), (var olan Azərbaycan və arzuladığı Azərbaycan) düşüncələrini ifadə etmişdir. Müəllif nağıl motivində mükəmməl bəhrələnməklə həm folklorizmin işlənmə imkanlarını genişləndirmiş, həm də xalqın arzusunu xalqın söz xəzinəsindən yararlanaraq özlərinə çatdırmışdır. "Bu kontekstdə yanaşıldıqda Anar məhz utopik və xəyali düşüncələrə söykənərək vətənin taleyi ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirməyə çalışır" (2). Romanın əsasında siyasi problem dayansa da, yazıçı nağıl janrına məxsus forma, üslub özünəməxsusluqlarını qoruyub saxlamışdır.

Müasir dövr Azərbaycan romanlarından biri də Hüseynbala Mirələmovun "Gəlinlik paltarı" (2004) (4) romanıdır. Romanın ilk səhifələrində biz xalqımıza aid toy mərasiminin təsvirini, mərasimdə icra edilən adətləri, ritualları görə bilərik. Toya hazırlıq, vağzalı havası, gəlinin bəy evinə gətirmək, qurban kəsmək, qab sındırmaq (4, 19-22) kimi və s. adətlərin təsviri ilə başlayan müəllif oxucunu elə ilk səhifələrdən adət-ənənəyə, unudulmaqda olan keçmişə aparıb, yaddaşını təzələyir və sonrada romanda baş verən sosial-psixoloji, mənəvi-əxlaqi problemləri ortaya qoyub həlli yollarının göstərir. Fənayə adlı obrazın timsalında müasir dövrün gəncliyini, gənc ailəsini, cəmiyyətin təməlini ümumiləşdirib əxlaqi dəyərlərin necə məhvə doğru getdiyini ifadə edir. Bir xalq olaraq mənsub olduğumuz, ulularımızdan bizə müqəddəs bir miras kimi qalan, adət-ənənəmizə zidd olan bu yad adətlərin azadlıq, xoşbəxtlik adı ilə sağlam gələcəyimizə necə zərər verdiyini müəllif açıq-aydın oxucuya göstərir və buna qarşı durmağa səsləyir.

Əsərin adı elə folkordan gələn bir ifadədir. Toy mərasiminin əsas atributlarından biri də gəlinlik paltarıdır. Mütləq ağ rəngdə olan, gəlinin bakirəliyini, saflığını simvolizə edən, qurulacaq ailənin də belə təmiz, saf niyyətlər əsasında qurulmasını ifadə edən "gəlinlik" bir adətdir. Həm

E.Hüseynbəylinin "Yovşan qağayılar"ı (5), həm də H.Mirələmovun "Gəlinlik paltarı"(4) romanı hazırki cəmiyyətimizdə unudulmaqda olan milli-mənəvi və əxlaqi dəyərlərin yenidən qazandırılması və təbliği üçün böyük əhəmiyyətə malik əsərlərdir. Əsərlərdə qoyulan problemlər günümüz üçün aktual olan məsələlərdən biridir. Hər iki əsərin müəllifi problemin həllini milli kökə, keçmişə qayıtmaqda görür və təsadüfi deyil ki, əsərlərin əvvəlində folklor motivlərinin işlədilməsi ilə bu məsələnin həlli yolunu açıq şəkildə oxucuya elə bəri başdan izah edir.

Müstəqillik dövründə yaranmış romanlar mövzu-məzmun baxımından zəngin və rəngarəngdir. Tədqiq olunan romanlarda sosial-siyasi, mənəvi-əxlaqi məsələlərə xüsusi diqqət yetirilmişdir. Bu romanlarda demək olar ki, müasir Azərbaycan cəmiyyətini və çağdaş dünyanı narahat edən, düşündürən ən mühüm məsələlər mövzu obyektinə çevrilmişdir.

## ƏDƏBİYYAT

1. Anar. Əsərləri. IV cild, Bakı: Nurlan, 2004, 503 s.
2. Əhməd S. E. Müstəqillik dövrü Azərbaycan romanı. Bakı, "Nurlar", 2017, 192 s.
3. Əliyev K. Eposun poetikası: "Dədə Qorqud" və "Koroğlu". Bakı: Elm-təhsil, 2011, 164 s.
4. Hüseynbala M. Gəlinlik paltarı. Bakı, Gənclik, 2004, 522 s.
5. Hüseynbəyli E. Yovşan qağayılar. Bakı: Adiloğlu, 2005, 344s.
6. Qarayev S. Kosmoqonik planda toyun ritual-mifoloji semantikası (Qarabağdan toplanmış materiallar əsasında). Qarabağ folkloru: problemlər, perspektivlər mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: 26 dekabr 2012, 209-223 s.

**А.Аббасова**

## Возможности разработки фольклоризма в азербайджанских романах современного времени

### Резюме

Во всех периодах письменной литературы фольклоризм использовали с различными целями и в различных смыслах.

В современное время невозможно встретить такого писателя, который в поэзии или в прозе не воспользовался бы фольклорными мотивами и образами. Фольклорные мотивы в письменной литературе современного времени превратились в форму выражения национальной самобытности и самовыражения. Творчество таких писателей того времени, как Анара, К.Абдуллы, Э.Гусеинбейли и Г.Мираламова

богаты фольклорными мотивами. В произведениях знаменитых и молодых писателей большинство составляют разработка сюжетов эпоса, легенды, и сказок, фольклорных мотивов.

В статье в основном повествуется о возможностях разработки фольклорных мотивов в азербайджанских романах современного времени.

**A.Abbasova**

**Opportunity for using of folkorismus in the novels of modern azerbaijan**
**Summary**

Folklorismus was used in all periods of written literature for different meanings and purposes. It is not possible to meet any of the writers who write in modern time that he will not take a benefit from the folklore motive and images in poetry or prose. The folklore motives have turned to be the form of expression of national identity and self-determination more in the written literature of modern time. The creative works of the writers Anar, K.Abdulla, E.Huseynbayli and H.Miralamov who wrote in this time, are rich in the folklore motives.

The use of the epos, legend, story plots and folklore motives mainly dominates in the works of the famous and young writers.

The article mainly deals with the opportunities of using of the folklore motives in the Azerbaijani novels of modern time.

**Rəyçi: Kamran Əliyev**
**Filologiya elmləri doktoru, professor**